Kazım Kazımlı

## "Yurd yeri" çal!

Bağrı qanlı bənövşələr,
Yandım, aşıq, «Yurd yeri» çal!
Hanı o məxmər meşələr?
Yandım, aşıq, «Yurd yeri» çal!

Ağlar qalıbdı bulaqlar,
Solubdu lalə yanaqlar,
Gör kimə qaldı yaylaqlar?
Yandım, aşıq, «Yurd yeri» çal!

Gəlmir bülbülün avazı,
Susubdu Qorqudun sazı,
Yasdadı Azəri qızı,
Yandım, aşıq, «Yurd yeri» çal!

Şuşa qalam, Cıdır düzüm,
Düşməndədir canım-cözüm,
Bu dərdə mən necə dözüm,
Yandım, aşıq, «Yurd yeri» çal!

Hanı Laçın-Kəlbəcərim,
Neçə-neçə kənd-şəhərim,
Başdan aşır dərd-kədərim,
Yandım, aşıq, «Yurd yeri» çal!

Cənnətməkan Qarabağım,
Ağrım-acım, düyün-dağım,
Köksü yaralı torpağım,
Yandım, aşıq, «Yurd yeri» çal!

Şəhid oldu mərd oğullar,
Yasdadı Savalan, Qoşqar,
Bir belə zülümmü olar?
Yandım, aşıq, «Yurd yeri» çal!

Göllər gözəli Göy-gölüm,
Qan içində düzüm-çölüm,
Ölüm yoxdu, mən də ölüm,
Yandım, aşıq, «Yurd yeri» çal!

Təklənən Azərbaycandı,
Düzləri od tutub yandı,
Gölləri qana boyandı,
Yandım, aşıq, «Yurd yeri» çal!

## Sən gözəlsən

**Baxanların ağlı çaşır,**
**Sən gözəlsən hər gözəldən.**
**Gözəllik sənə yaraşır,**
**Sən gözəlsən hər gözəldən.**

**Günəşə bənzəyir üzün,**
**Dumduru çeşmədi gözün,**
**Bilsən, bilməsən də özün,**
**Sən gözəlsən hər gözəldən.**

**Yuxuma girirsən gecə,**
**Sevəcəm səni ölüncə,**
**Bir mələksən zərif, incə,**
**Sən gözəlsən hər gözəldən.**

**Kazımın eşqi, ilhamı,**
**Ay ömrümün dadı, tamı,**
**Gəl, bəzə sevgi dünyamı,**
**Sən gözəlsən hər gözəldən.**

## Azərbaycan qadınıdır

*Məhəbbətim - ülviyyətim,*
*Azərbaycan qadınıdır.*
*Şərəfim, şanım, şöhrətim,*
*Azərbaycan qadınıdır.*

*Həm ağıllı, həm kamallı,*
*Günəş üzlü, ay camallı,*
*Xoş məramlı, saf amallı,*
*Azərbaycan qadınıdır.*

*Güllü yazım, xoş baharım,*
*Əyilməyən dağ vüqarım,*
*Əhdim, andım, etibarım,*
*Azərbaycan qadınıdır.*

*Arzum, muradım, diləyim,*
*Ətirli gülüm, çiçəyim,*
*Gözəllər şahım, mələyim,*
*Azərbaycan qadınıdır.*

*Tomris, Nigar nişanəsi,*
*Odur ömrümün mənası,*
*İgid oğullar anası,*
*Azərbaycan qadınıdır.*

*Dilimdə laylam, bayatım,*
*Eşqim, varlığım, həyatım,*
*Şənliyim, toyum, büsatım,*
*Azərbaycan qadınıdır.*

*Kazımın yarı-yoldaşı,*
*Sədaqətli can sirdaşı,*
*Oğulların qız qardaşı,*
*Azərbaycan qadınıdır.*